Biznes və idarəetmə Məktəbinin Fakültə Elmi Şurasının
30 may 2025-ci il tarixli 05 saylı iclasının protokolundan

**ÇIXARIŞ**

Bakı şəhəri 30.05.2025-ci il

**İclasın sədri: dos. Natiq Mirzəyev**
**Elmi katib: müəllim Ülviyyə Xudaverdili**

**İştirak edirlər:** Fakültə Elmi Şurasının 11 nəfər üzvündən 10 nəfər: dos. Natiq Mirzəyev (sədr), prof. Səfər Pürhai, dos. Gülnisə Mustafayeva, dos. Kəmalə Dadaşova, i.ü.f.d. Rasim Abbasov (sədr müavini), müəllimlər Ülviyyə Xudaverdili (elmi katib), Kəmalə Hüseynova, Vüsal Heydərov, Şəms Murad (TGT), Aytən İsmayılova (TEC)

**Gündəlikdə duran məsələ:**
**Tələbələrin müəllim məmnuniyyəti sorğusunun nəticələrinin müzakirəsi**

**Eşidildi:**

"Biznes və idarəetmə" Məktəbinin dekanı dos. Natiq Mirzəyev bildirdi ki, Keyfiyyətin Təminatı Mərkəzi müəllimlərlə bağlı tələbə məmnuniyyət sorğusu keçirmişdir. Belə sorğular üzrə məlumatlar tədrisin effektivliyini qiymətləndirməkdə kömək edir. O həmçinin bildirdi ki, ümumi nəticələr yaxşı olsa da bəzi müəllimlərlə bağlı nəticələr orta səviyyədədir. Həmin müəllimlərlə fərdi söhbətlər aparılmış və bu məsələ ilə bağlı iradlar və tövsiyələr verilmişdir. Bu məsələni müzakirəyə təqdim etdi.

**Çıxışlar:**

**"Turizm və sahə iqtisadiyyatı" kafedrasının müdiri prof. Səfər Pürhani** bildirdi ki, hər ay müllimlər kafedraya dəvət olunaraq onlarla söhbət aparılır və kafedranın ümumi içlasında bu istiqamətdə məsələlər müzakirə olunur. Kafedranın bir qrup müəllimlərinin Məmnunluq səviyyəsi göstəricisi "orta səviyyədə" olmuşdur - Quliyev Asiman (60%), Rzazadə Hicran (70,3%), Babayev Nüsrət (73.3%). Bu məsələ ilə bağlı tədris materiallarının təkmilləşdirilməsi, tələbələrin əlavə ədəbiyyatlarla təmin olunması bildirilmiş, intizam qaydalarına əməl olunması və müəllim-tələbə münasibətlərinin yaxşılaşdırılması onların nəzərinə çatdırılmışdır. Eyni zamanda, daha təcrübəli müəllimlərin dərslərində iştirak etməklə təcrübələrini artıra bilərlər və bu da onların fəaliyyətinə müsbət təsir edəcəkdir.

**"Marketinq və idarəetmə" kafedrasinin müdiri dos. Gülnisə Mustafayeva** qeyd etdi ki, kafedra üzrə Məmnunluq göstəricisi "Yüksək və orta səviyyəli məmnuniyyət" səviyyəsindədir. Bu məsələ ilə bağlı müəllimlər kafedraya dəvət olunmuş və onlarla fərdi söhbətlər aparılmışdır. Eyni zamanda, digər kafedrada olduğu kimi kafedranın ümümi iclasında bu məsələyə baxılmışdır. Kafedra üzrə müəllim Rəşad Əbilzadənin (60%) Məmnunluq göstəricisi "orta səviyyədə" olmuşdur. Həmin müəllim artıq kafedramızda çalışmır. Tədrisin keyfiyyətinin yüksəldilməsinin vacib olduğu və bununla bağlı hər bir müəllimin üzərinə xüsusi məsuliyyət düşdüyü bütün müəllimlərin nəzərinə çatdırılmışdır. O, həmçinin qeyd etdi ki, xarici ölkələrin ali məktəblərindən dəvət olunmuş müəllimlərin dərslərində iştirak etmək və təcrübə qazanmaq yaxşı nəticə verə bilər.

Təkliflər açıq səs verməyə təqdim edildi. Qərar layihəsi yekdilliklə qəbul edildi.

**Qərar:**

1. Həmin müəllimlərə öz üzərində daha çox çalışmaları bildirilsin və növbəti tədris ili üçün dərs bölgüsündə bu nəzərə alınsın;
2. Xarici ölkələrin ali məktəblərindən professor-müəllim heyətinin dəvət olunması davam etdirilsin və kafedraların müəllimlərinin təcrübə qazanmaq üçün həmin dərslərdə iştirakı tövsiyə edilsin;
3. Tədrisin keyfiyyəti üzrə işlər və nəzarət daha da gücləndirilsin.

Sədr: dos. Natiq Mirzəyev

Elmi katib: m. Ülviyyə Xudaverdili